# Yeni layihələr Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirəcək

**"Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətləri Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamı üzərində gündən-günə möhkəmlənməkdədir. Dövlət başçıları arasında formalaşmış qardaşlıq münasibətləri dahi liderlərimizin bizə miras qoyduğu müdrik kəlamlara sadiqliyin nə qədər əhəmiyyətli olduğunu göstərir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və səmimi münasibətlərdə olan başqa dövlətlər yoxdur. Hətta dünyada eyni dil və dinə malik xalqlar arasında qanlar axıdıldığını və düşmənçiliklərin dərinləşdiyini görürük. Amma Azərbaycan və Türkiyə tarixən bir-birinin yanında olaraq, çətin və sevincli günlərdə qardaşlığın nə qədər möhkəm və sarsılmaz olduğunu təsdiq edib. Ölkələrimiz ticari, iqtisadi, humanitar, mədəni, hərbi və digər sahələrdə əməkdaşlıqlarını gündən-günə dərinləşdirirlər. Biz bir yerdə daha güclü oluruq və dünyada sözümüzün çəkisi artır. "Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri və səfəri çərçivəsində İğdır-Naxçıvan qaz boru xəttinin açılışının edilməsi böyük əhəmiyyət daşıyan tarixi hadisədir. Bu qaz kəmərinin istismara verilməsi Azərbaycanla Türkiyəni birləşdirən xətlərə yeni bir xəttin əlavə olunması deməkdir. İki qardaş ölkə hər tərəfdən bir-biri ilə möhkəm bağlarla bağlanır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə formalaşmış kommunikasiyalar siyahısı İğdır-Naxçıvan qaz boru xətti ilə davam etdirilir. Gələcəkdə İğdırdan elektrik və dəmiryol xətləri də çəkiləcək ki, bu da qardaşlığımızı daha da möhkəmləndirəcək", - deyə o əlavə edib.

A.Badamov xatırladıb ki, 1990-cı illərin əvvəlində Naxçıvan blokadada olduğu çətin günlərdə açılışı olmuş "Ümid" körpüsü əsl ümid yerinə çevrilmişdi. Məhz Ulu Öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etməsi muxtar respublikanı böyük bəlalardan xilas etmiş, Türkiyə ilə münasibətlərin genişlənməsinə yol açmışdır. Əgər müstəqilliyimizin ilk günündən Ulu Öndər Azərbaycana rəhbərlik etsəydi, müstəqilliyimiz tarixində yaşadığımız faciələrlə heç vaxt qarşılaşmazdıq.

Deputat qeyd edib ki, düşmənlərimiz həmişə türk dünyasını bir-birindən ayırmağa çalışıblar. 1920-ci ildə Zəngəzuru Azərbaycandan ayıraraq Ermənistanla birləşdirməklə türk dünyasında fiziki bağlantını kəsməyə nail ola bilmişdilər. Amma indi dövlət başçılarımızın uzaqgörən siyasəti türk dünyası arasında yenidən fiziki bağlantının yaradılmasına istiqamətlənib. Bu gün Naxçıvanla Türkiyə arasında kommunikasiyaların yaradılması istiqamətində görülən işlər də türk dünyasının yenidən birləşməsinə xidmət edir. Yaxın gələcəkdə Zəngəzur dəhlizi də açılacaq və ölkələrimiz arasında bağlar daha da möhkəmlənəcək.

Deputat vurğulayıb ki, Azərbaycan və Türkiyə qardaş, həm də müttəfiq ölkələrdir: "Biz çətin günlərimizdə bir-birinin yanında olmaqla, birliyimizi və qardaşlığımızı dünyaya nümayiş etdiririk. Torpaqlarımız işğal altında olduğu dövrdə Türkiyə beynəlxalq arenalarda Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini gündəmə gətirib. O cümlədən 44 günlük Vətən müharibəsi zamanı da Türkiyənin ölkəmizə siyasi və mənəvi dəstək göstərməsi, qısa zaman kəsiyində zəfərimizə nail olmağımıza yol açdı. Türkiyədə zəlzələ baş verən zaman Azərbaycan heç nə soruşmadan fəlakətdən əziyyət çəkən bölgələrə birbaşa yardımlar göndərib".

A.Badamov qeyd edib ki, iki ölkənin birgə layihələri bundan sonra da çox olacaq. Dövlət başçıları arasında möhkəmlənmiş qardaşlıq münasibəti xalqlarımızı da bir-birinə daha da yaxınlaşdırır və monolit gücə çevirir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



Azərbaycan.- 2025.- 8 mart (№52).- S.12.